# Sizi kim unudar?!









# Qəhrəman Azərbaycan əsgəri parçalanmış Vətəni bütövləşdirdi

***Bu gün nəinki Qafqaz regionunda, eləcə də beynəlxalq məkanda Azərbaycan özünün uğurlu xarici siyasəti və nüfuzu ilə seçilən bir ölkə kimi tanınır. Hətta sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələri bölmələrinin genişmiqyaslı hərbi təxribat törədib, gecənin qaranlığından və çətin keçilən ərazidən istifadə edərək silahlı qüvvələrimizin hərbi mövqeləri arasındakı yollara minalar düzməyə cəhd göstərməsinin qarşısı alınandan sonra bəzi xarici düşmən dairələrdə  Azərbaycana münasibətdə ikili standartlar yenidən gündəmə gətirilsə də ölkənin haqq işinə kölgə salmaq mümkün olmadı.***



ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri və bu səfər çərçivəsində səsləndirdiyi fikirlər Ermənistanın yox, təçavüzkarın müdafiəsi kimi qəbul olundu. Bir sıra siyasət adamlarının qeyd etdiyi kimi, Nensi Pelosinin fikirləri bölgədəki reallıqları kobud və qərəzli şəkildə təhrif etməkdir, Cənubi Qafqazda davamlı sülhün, sabitliyin təmin olunmasına maneə yaratmaqdır. Amerikanın, eləcə də Avropanın populyar mətbuat orqanlarında səsləndirilən bu haqlı fikirlər separatizmi və xalqlararası ədavəti qızışdıanlara cavabdır.

Bugünlərdə "Nyu York Tayms" qəzetinin yazdığı kimi, "ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosi öz dəstəyini göstərmək və "bu yaxınlardakı zorakılığın azərbaycanlılar tərəfindən törədildiyini" bəyan etməkdən ötrü Ermənistana səfər edərək, vəziyyətə "qarışdı". Bu səfər cari ilin noyabrında keçiriləcək aralıq seçkilərindən əvvəl Pelosinin siyasi gedişi kimi qəbul olundu. Onu Konqresin erməni mənşəli iki üzvü müşayiət edirdi".

**Bütün bunlar barədə Türkiyənin Ege Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun müdir müavini Atif Akgün** mülahizə və qənatlərini bizimlə bölüşdü. Xatırladaq ki, Atif bəy ötən illərdə Türkiyə Təhsil Nazirliyinin göndərişi ilə Azərbaycanda – Bakı Dövlət Universitetində mübadilə proqramında iştirak edib. Atif bəy bildirdi ki, Azərbaycanda çalışdığı illərdə bölgənin tarixi və siyasi reallıqları ilə yaxından tanış olub:

– Ermənilərin təçavüzkar siyasətinin qurbanı olan insanlarla tanışlığım mənə bu işğalçı ölkənin mənfur siyasətinin mahiyyətini daha dərindən anlatdı. Ermənistanın Azərbaycana qarşı təcavüzkar düşmənçilik siyasətinin 200 ildən çox tarixi var və bu siyasət azərbaycanlılara qarşı davamlı soyqırımlarla müşayiət olunub. Sovetlər dağılandan sonra isə Ermənistanın işğalı nəticəsində bir milyona yaxın azərbaycanlı öz yurd yerlərindən qovuldu. Tarixi, mədəni, dini abidələr dağıdıldı, şəhər və kəndlər yerlə-yeksan edildi. Ən dəhşətlisi, dünyanı sarsıdan Xocalı soyqırımı törədildi.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun başlatdığı əks hücum nəticəsində Silahlı Qüvvələrimizin əsgər və zabitləri böyük igidlik və mərdlik göstərdi, 44 günə Azərbaycan Ordusu Ermənistan tərəfindən işğal edilmiş torpaqları azad etdi. Mədəniyyət paytaxtımız Şuşa şəhərinin işğaldan azad edilməsi bütün Türk dünyasının həyatında əlamətdar hadisə oldu. Şuşanın işğaldan qurtulması ilə Ermənistan məğlubiyyətini etiraf etdi. 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası demək idi.

Beləliklə, 44 gün ərzində Azərbaycan Ordusu nəyə qadir olduğunu bütün dünyaya göstərdi. Qəhrəman Azərbaycan əsgəri Vətəni, torpağı yolunda şəhid oldu və bununla dünyanın müharibələr tarixində nadir rast gəlinən hünərə imza atdı: bu savaşda ölmək oldu – geriyə dönmək olmadı. Fərarilik faktının qeydə alınmaması da təsdiq etdi ki, "dəmir yumruq"da birləşənlər tarixi torpaqların müdafiəsi yolunda canlarından keçməyə, şəhid olmağa hazırdırlar.

**– Yəqin, onu da bilirsiniz ki, Vətən müharibəsi zamanı Ermənistan rəhbərliyi və silahlı quldur dəstələri məğlubiyyətə uğrayanda yeni hərbi cinayətlərə əl atdılar, dinc əhaliyə uzaqvuran ağır silahlarla, hətta ballistik raketlərlə atəş açdılar.**

– Sözsüz ki, bunlar bizim üçün də ağır oldu. Hətta bu məlumatları bütün dünyaya ilk yayan türk repartyorlar oldu. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Goranboy şəhərlərinin top və raket atəşinə



tutulması bütün beynəlxalq hüquq normalarına təcavüz idi. Nəticədə, dinc insanlar həlak oldular, minlərlə fərdi ev, xeyli çoxmərtəbəli bina dağıdıldı. Onu da bilirik ki, Ermənistan rəhbərliyinin daha bir hərbi cinayəti işğal zamanı torpağa basdırılmış və dinc insanların həlak olmasına səbəb olan minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməməsidir. Beynəlxalq təşkilatlar mina xətitələrini Azərbaycana verməməsinə görə Ermənistanı hərbi məsuliyyətə cəlb etməlidir.

– **Vətən müharibəsində əldə etdiyimiz Qələbə Azərbaycanın çoxəsrlik tarixinə yazılan ən şanlı hadisə oldu. Burada qardaş Türkiyənin köməyi və beynəlxalq aləmdə Azərbaycana göstərdiyi dəstək də önəmli rol oynadı.**

– Bəli, tarix yenidən təkrar olundu. Hələ bir əsr əvvəl Bakını bölşevik-daşnak işğalından xilas edən Qafqaz–İslam Ordusunun şərəfli missiyasını Türkiyə bu dəfə Qarabağda davam etdirdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığı Qələbədə dünya bir daha Azərbaycan–Türkiyə qardaşlığının sarsılmazlığını gördü. Bu şanlı müharibədə bütün Türkiyə, sizə dost-qardaş olan türk xalqı Azərbaycanın yanında olduğunu söylədi. İkili siyasətləri ilə dünyada oyunlar quran güc mərkəzləri bu möhtəşəm birliyi açıqaşkar gördü.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın və bütün hökumət adamlarının çıxış və bəyanatları da təsdiq etdi ki, Türkiyə və Azərbaycan tarixən olduğu kimi, bu gün də bütün sahələrdə yaxından əməkdaşlıq edən iki dost və qardaş ölkədir. Cənab Ərdoğanın ifadə etdiyi "Biz hər an, hər məsələdə Azərbaycanın yanında olacağıq" bəyanatı 80 milyondan çox Türkiyə xalqının sevgi və iradəsini nümayiş etdirdi.

**– Son hadisələr – sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı hərbi təxribat Türkiyədə necə qarşılandı?**

–Ermənilərin törətdiyi təxribatlar sülh müqaviləsinin imzalanmasını, sərhədlərin demarkasiya və delimitasiya prosesini yubatmağa hesablanmışdı. Baş verənlər bir daha Ermənistanın revanşist niyyətlərindən hələ də əl çəkmədiyini göstərdi. Bununla ermənilər bir daha sübut etdilər ki, onlar sülhə hazır deyillər. Son hadisələr də bir daha təsdiqlədi ki, Ermənistan təçavüzkar siyasəti ilə Cənubi Qafqazda sülhə təhdidir. Bu davakar toplum ağlını başına yığmalı, düşmənçilik siyasətindən və revanşist adımlarından əl çəkməlidir. Bu halda Türkiyə də önəmli bir qonşu olaraq onunla əməkdaşlığa hazırdır.

Baş verənlər bir daha göstərir ki, Ermənistan sülhə məcbur edilməlidir. Bir daha təsdiqləndi ki, Ermənistanın revanşist addımları məğlubiyyətə məhkumdur. Məğlub ölkənin hərbi-siyasi rəhbərliyi anlamalıdır ki, Azərbaycan istənilən təxribat cəhdinin və qeyri-qanuni fəaliyyətin qarşısını almağa qadirdir. Amma Ermənistan hələ də nöqtə qoymaq istəmədiyi əsassız ərazi iddiaları xülyası ilə məğlubiyyətini dərinləşdirir.

Bu ədalətsiz siyasətin əvəzi Azərbaycanın tarixi torpaqlarını – vaxtilə Ermənistanın sahibləndiyi Zəngəzurun, Göyçənin geri qaytarılmasını gündəmə gətirməsi ola bilər.

– **Maraqlı söhbətə, dəyərli fikirlərə görə çox sağ olun.**

**Namiq ƏHMƏDOV, "Xalq qəzeti"**